**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazma hüququnda*

# SAHİBKARLIQ SEKTORUNUN AZƏRBAYCANIN İNNOVASİYALI İNKİŞAFINDA ROLUNUN TƏDQİQİ

İxtisas: 5308.01 – "Ümumi iqtisadiyyat"

Elm sahəsi: İqtisad elmləri


İddiaçı: **Arif Nail oğlu Əliyev**


fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiya işinin

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Eldar Allahyar oğlu Quliyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Möhübbət Musa oğlu Hüseynov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Asif Mirlazım oğlu Mustafayev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Esmira Canəli qızı Abdullayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru
**Elşən Əli oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə beynəlxalq bazarlarda istehsal texnologiyasını, innovasiya potensialını inkişaf etdirən və yüksək əlavə dəyər yaradan sahələri stimullaşdıran ölkələrin beynəlxalq və regional səviyyədə rəqabətədavamlılığının artdığı müşahidə edilir. Qloballaşmanın dərinləşməsi və dünya təsərrüfat sistemində ölkələrarası rəqabətin güclənməsi intellektual resurslara, bilik tutumlu və informasiya texnologiyalarına əsaslanan iqtisadiyyata keçidi zəruri edir. Artıq dövlətlərin zənginliyi xammalın zənginliyinə deyil, daha çox elmin və texnologiyanın inkişafına əsaslanır. İnkişaf etmiş ölkələr ictimai həyatın bütün sahələrində, o cümlədən iqtisadiyyatda, dövlət idarəetməsində, müdafiə sistemlərində, təhsil, səhiyyə sahələrində daim təkmilləşən texnoloji metodlardan istifadə etmək yolunu seçiblər. Bu istiqaməti "innovasiyalı inkişaf" da adlandırmaq olar. "İnnovasiyalı inkişaf" iqtisadi ədəbiyyatlarda son onilliklərdə geniş müzakirə olunan "innovasiya", "innovasiya prosesi", "innovasiya sistemləri" anlayışları ilə birbaşa əlaqəlidir. Qeyd etdiyimiz kimi "innovasiyalı inkişaf" yolunu seçən ölkələr qrupu bu yolu tutmaq istəyən, lakin hələ tuta bilməyən ölkələr qrupundan fərqlənir. Qeyd edək ki, "innovasiyalı inkişaf" yolunda olmaq ölkələr üçün o qədər də asan başa gəlmir.

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə elmi tədqiqatlara və işləmələrə ayrılan maliyyə vəsaitlərinin müqayisəli təhlili bu qənaətə gəlməyə əsas verir ki, bu vəsaitin yüksək olduğu ölkələrdə iqtisadi inkişaf səviyyəsi də yüksəkdir. Lakin bu göstəricilər arasındakı əlaqənin iki istiqamətli olması vacibdir. Belə ki, ölkənin iqtisadi imkanları müəyyən səviyyədə olmalıdır ki, ölkə belə xərcləri qarşılamağa hazır olsun və gəlirlərin məhdud olduğu halda elmi tədqiqatlara vəsaitin ayrılması da mümkün görünsün. İnnovasiya xərcləri hesabına innovasiyalı inkişafa zəmin yaratmaq olar. Bu mühakimədən belə nəticə çıxarmaq olar ki, bir-birini stimullaşdıran bu iki göstərici üçün müəyyən hədd var ki, bu həddi aşan ölkələr qrupu belə xərclərdən gəlir əldə edə bilir. Başqa sözlə desək, ikinci qrup ölkələrin birinci qrup ölkələr sırasına keçmək imkanları çox məhdudur.

Tədqiqat və İnkişaf (R&D) xərclərinin hər hansı səviyyədə artmasının mütləq inkişafa səbəb olmasını iddia etmək mümkün deyil. Belə ki, bu xərclərin nə dərəcədə səmərəli istifadəsi də ciddi mübahisə predmeti ola bilər.

Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, innovativ iqtisadi inkişafda digər amillərlə yanaşı sahibkarlıq da mühüm rol oynayır. Ölkədə sahibkarlığın inkişafı rəqabəti gücləndirir. Rəqabət isə yeni ideyaların yaranması üçün motivasiyadır. Hər bir ölkədə sahibkarlığın uğurlu inkişafı, təkcə normativ hüquqi bazanın yaradılması ilə məhdudlaşmır. Cəmiyyətin sahibkarlıqla bağlı baxışları da önəmlidir. Belə ki, uzun müddət sahibkarlığın qadağan olunduğu və hətta ona qarşı ciddi mübarizənin aparıldığı geniş siyasi və iqtisadi mühitdə yaşayan insanların birdən-birə sahibkarlıq təfəkkürünə yiyələnməsi mümkün deyildi. Bir müəssisə daxilində birləşərək fəaliyyət göstərmək, yaxud hər hansı iqtisadi ideyanın reallaşması üçün investisiya qoymaq və müxtəlif mahiyyətli risklərin qəbulu və idarəedilməsi həm də sahibkarlıq sahəsində bilik və bacarıqların olmasını tələb edirdi.

Azərbaycanda sahibkarlıq fəaliyyəti ölkəmiz müstəqillik əldə etdikdən sonrakı dövrdə formalaşmağa başladığından onun nəzəri və empirik tədqiqatı da son illərdə genişlənib. İqtisadi islahatların həyata keçirilməsi ilə bilik və informasiyanın rolunun artırılması, kapital bazarları ilə yeni texnologiyalar arasında əlaqələrin gücləndirilməsi istiqamətində Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası və dünya iqtisadi sisteminə çevrilməsi mümkün olmuşdur. Çünki ölkəmizdə sahibkarlığın innovativ inkişaf yoluna keçidi daha da aktuallaşır.

Azərbaycanda Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində böyük iqtisadi islahatlar həyata keçirilmiş, sosial iqtisadi inkişaf təmin edilmişdir. Ulu öndərin layiqli davamçısı İlham Əliyev struktur islahatlarını davam etdirmiş, ölkədə mikro və makroiqtisadi mühiti daha da münbitləşdirmiş, xarici investisiyaların ölkəmizə cəlb olunmasında uğurlu addımlar atmışdır.

Müstəqil Azərbaycan dövləti postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən yeni strateji mərhələyə daxil olmuşdur. Bu dövrdə dövlətin qarşında duran məqsədlərə nail olmaq, bunun üçün uyğun siyasət və islahatlar çərçivəsini

formalaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 02 fevral tarixli Sərəncamı ilə, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər təsdiq olunmuşdur. Qəbul edilmiş beş Prioritetin üçüncüsü – rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı kimi müəyyən olunub.[1] Qeyd edilənlər, dayanıqlı, artan rəqabətli iqtisadiyyatda ölkəmizin 10 illik prioritetlərindən biri kimi, həmçinin dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması mərhələsində uzun illər Azərbaycanın sosial – iqtisadi inkişafının prioritet istiqamətləridir.

İnnovativ iqtisadi inkişafın tədqiqat predmeti kimi gündəmə gəlməsi də yenidir. Lakin buna baxmayaraq, hər iki problem ayrı-ayrılıqda həm mikro, həm də makro səviyyədə müəyyən qədər öyrənilib. Lakin sahibkarlığın innovativ iqtisadi inkişafa təsirlərinin öyrənilməsi Azərbaycan iqtisad elmi üçün mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, sahibkarlığın bir amil kimi innovativ iqtisadi inkişafa təsirləri digər ölkələrin timsalında da az tədqiq edilən problemlərdəndir.

Azərbaycanda sahibkarlıq və innovasiyalı inkişaf problemləri bir-birindən ayrı tədqiq edilmişdir. İqtisadiyyatın müxtəlif sektorlarında sahibkarlıqla bağlı problemlər Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, E.A.Quliyev, İ.H.İbrahimov, İ.M.Abbasov, E.R.İbrahimov, B.X.Ataşov, R.Ə.Balayev, A.F.Abbasov, A.E.Quliyeva, V.H.Abbasov, A.Ə.Əzizov və başqaları tərəfindən, innovasiyalı inkişaf problemləri Ş.M.Muradov,İ.H. Aslanzadə, E.Ə. İbrahimov, A.M. Əsədov, Z.M. Nəcəfov, M.M.Hüseynov, A.D.Hüseynova, Q.N.Manafov, F.H.Qasımov və başqaları tərəfindən tədqiq edilmişdir.

İnnovasiyaya müasir dövrdə inkişafın əsas amili kimi mühüm önəm verilməsi Şumpeterə məxsusdur. Lakin Janoskova K, Kral P, Svagzdiene B, Kuklyte J, Scholleova H, Rylkova Z, Mikolajczyk B, Ostraszewska Z, Tylec A, Fabova L, Janakova H, Sipos G, Majerova İ, Kliestik T, Kliestikova J, Lazaroiu G, Rommer D, Zelazny R, Pietrucha J, Zygmunt A. və başqalarının tədqiqatlarında innovasiyaların iqtisadi inkişaf üçün nəinki zəruriliyi əsaslandırılmış,

[1] Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı, Azərbaycan 2030: sosial – iqtisadi inkişafa dair Milli Prioritetlər, Bakı-2021, 5 s.

hətta innovativ inkişaf səviyyələrinin müqayisəli qiymətləndirilməsi aparılmışdır. Sahibkarlığın, xüsusilə innovativ sahibkarlığın mahiyyəti və qiymətləndirilməsi ilə bağlı bəzi problemlər Stefan D., Uaasdorp P. Dahlstrand L., Stevenson, L, Szabo K., Herman E. və başqaları tərəfindən tədqiq edilmişdir. Bəzi ölkələrin timsalında sahibkarlığın innovativ iqtisadi inkişafa təsirləri García F., Jin B., Salomon R. və başqaları tərəfindən araşdırılmışdır.

Azərbaycan timsalında sahibkarlıq və innovasiyalı inkişaf problemlərinə həsr edilən bütün tədqiqatlara yüksək qiymət verərək, qeyd etmək istərdik ki son 30 ildə ölkəmizdə aparılan elmi tədqiqatlarda sahibkarlığın innovasiyalı inkişafa təsirləri sistemli tədqiq edilməmişdir. Tədqim edilən dissertasiya işi bu böşluğun aradan qaldırılması üçün ciddi cəhd hesab edilə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti olaraq Azərbaycanda sahibkarlıq subyektləri və innovasiyalı məhsul istehsalı sahələri götürülmüşdür. Tədqiqatın predmetini Azərbaycanın innovasiyalı inkişafında sahibkarlığın rolunun artırılmasına dair iqtisadi münasibətlər, üsullar və vasitələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Sahibkarlığın innovasiyalı iqtisadi inkişafa təsirinin kəmiyyətcə qiymətləndirilməsi və innovasiyalı inkişafın təmin edilməsində sahibkarlığın rolunun artırılması üçün elmi cəhətdən əsaslandırılmış təkliflərin hazırlanması əsas məqsəd kimi müəyyən edilmişdir. Bu məqsədə nail olmaq üçün yerinə yetirilən vəzifələrə aşağıdakılar aid edilmişdir:

- innovasiya və innovasiyalı inkişaf anlayışlarına müxtəlif yanaşmaların təsnifləşdirilməsi və əsas determinantların qruplaşdırılması;
- inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin innovasiya sistemlərinin müqayisəli təhlili və Azərbaycanda innovasiyalı inkişaf səviyyəsinin qiymətləndirilməsi;
- Azərbaycanda innovasiya sisteminin mövcud vəziyyətinin və imkanlarının qiymətləndirilməsi;
- sahibkarlığın mahiyyəti və onun səviyyəsinin ölçülməsinə, determinantlarına müxtəlif yanaşmaların təsnifləşdirilməsi, müqayisəli təhlili;
- Azərbaycanda sahibkarlığın mövcud vəziyyətinin təhlili və

sahibkarlığın innovasiyalı inkişafa təsirinin qiymətləndirilməsi metodlarının müqayisəsi;
- sənaye sektorunda sahibkarlığın innovativ inkişafa təsirinin qiymətləndirilməsi;
- Azərbaycanda sahibkarlığın emal sənayesində innovativ inkişafa təsirinin qiymətləndirilməsi və bu istiqamətdə təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

**Tədqiqat metodları.** Dissertasiya işində tədqiqat üçün seçilmiş alqoritm sahibkarlığın və innovasiyalı inkişafın əvvəlcə ayrı-ayrılıqda öyrənilməsini, daha sonra isə qarşılıqlı əlaqə təhlilini nəzərdə tutub. Bunun əsas səbəbi hər iki fəaliyyət sahəsinin iqtisadiyyatın müxtəlif sahələri ilə müstəqil şəkildə əlaqədə olması ilə bağlıdır. Beləliklə, üç fəsildə aparılan tədqiqat zamanı ekonometrik metodlardan, müqayisəli qiymətləndirmələrdən geniş istifadə olunmuşdur. Hər bir fəsil üzrə tədqiqat zamanı qoyulan problemlə bağlı digər ölkələrin timsalında empirik qiymətləndirmələr Azərbaycan üzrə əldə edilən nəticələrlə müqayisə edilmişdir. Ekonometrik metodların tətbiqi zamanı zaman sırası, ölkələrarası çarpaz analizlər və panel analizlər metodundan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir.

1. Elmi tədqiqatlara və beynəlxalq təcrübəyə istinad etməklə innovasiyanın nəzəri-metodoloji əsaslarını və iqtisadi inkişafa təsirlərinin tədqiqi zəruridir.

2. Ölkədə innovasiyalı inkişaf səviyyəsini kəmiyyətcə və keyfiyyət baxımından dəyərləndirmək üçün müvafiq təhlillər əsasında qiymətləndirmələrin aparılması və bir sıra mexanizmlərin işlənməsini tələb edir.

3. Azərbaycanda hər nəfərə düşən ÜDM göstəricisi ilə Qlobal İnnovasiya İndeksi (QİI) arasında pozitiv əlaqə olduğunu nəzərə alaraq, innovasiya sisteminin iqtisadi artıma təsirinin araşdırılmasına ehtiyac vardır.

4. Ölkəmizin mövqeyi Qlobal İnnovasiya İndeksinin (QİI) “xərc” və “buraxılış” komponentləri üzrə mövqeyinin zəif olması və bu göstəricilər üzrə ölkə reytinqinin yaxşılaşdırılması istiqamətində tədqiqatların aparılması faydalı olardı.

5. Azərbaycanda investisiya fəaliyyətinin səmərəliliyinin təhlilləri

göstərir ki, sahibkarlıq mühitinin inkişafı və rəqəmsal iqtisadiyyatın formalaşması yeni hədəfləri müəyyənləşdirilməlidir.

6. Həm hasilat, həm də emal sənayesində "əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olmuş məhsul" həcmi ilə "təkmilləşdirilmiş məhsul" həcminin cəmi, texnoloji innovasiyalara çəkilən cəmi xərclərdən azdır. Buna baxmayaraq, texnoloji innovasiyalara çəkilən xərclərin gələcəkdə istehsalı stimullaşdırmasına və rəqabətqabiliyyətliliyi artırmasına olan təsirləri belə investisiya qoyuluşlarının əsaslandırılmasını tələb edir.

7. Sahibkarlıq fəaliyyətinin emal sənayesinə təsirləri ilə bağlı inkişaf etməkdə olan ölkələrin əksəriyyətinə xas olan problemlər Azərbaycanda da mövcuddur. Bu kimi məsələləri nəzərə alaraq ölkədə sahibkarlıq kapitalının az olması səbəbindən zəruri istehlak mallarının istehsalı üçün tələb olunan texnoloji avadanlıqların cəlb edilməsi istiqamətində dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi çox vacibdir.

8. Azərbaycanda 2007-2023-cü illərdə emal sənayesində texnoloji innovasiyalara çəkilən xərclərdə üstünlük təşkil edən istehsal sahələrindən yalnız metallurgiya sənayesində xərclər səmərəli olmuşdur. Digər sahələrdə "əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olmuş məhsul" həcmi ilə "təkmilləşdirilmiş məhsul" həcminin cəmi, texnoloji innovasiyalara çəkilən cəmi xərclərdən xeyli az olmuşdur. Bu baxımdan emal sənayesinin əksər sahələrində texnoloji innovasiyalara çəkilən xərclərin uzunmüddətli dövrdə nə üçün səmərəli olmaması ciddi araşdırma predmetidir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin əsas elmi yeniliklərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- beynəlxalq iqtisadiyyatda ölkələrin innovasiya sistemlərinə nəzəri baxışlar, onların metodoloji əsasları və müqayisəli təhlili aparılmışdır;
- ölkəmizin innovasiyalı inkişaf səviyyəsi kəmiyyətcə və keyfiyyət baxımından təhlil edilərək qiymətləndirilmişdir;
- Azərbaycanda innovasiya sisteminin mövcud vəziyyəti və inkişafının stimullaşdırıcı mexanizmləri, hədəfləri, perspektiv imkanları müəyyənləşdirilmişdir;
- Azərbaycanda sahibkarlığın mövcud vəziyyəti təhlil edilmiş və

rəqəmsal iqtisadiyyatın formalaşması zəminində sahibkarlıq mühiti qiymətləndirilmişdir;
- innovasiyalı iqtisadi inkişafa təsirləri xarakterizə edən göstəricilərin səmərəliliyi və hesablanması ilə Azərbaycanda sahibkarlıq sektorunun rəqabətqabiliyyətliliyi və dayanıqlılıq potensialı əsaslandırılmışdır;
- sənaye sektorunda sahibkarlığın innovativ inkişafa təsirləri kəmiyyətcə qiymətləndirilmiş və kompleks göstəriciləri əlaqələndirilmişdir;
- Azərbaycanda sahibkarlığın innovasiyalı strukturlarının təkmilləşdirilməsi və emal sənayesində innovativ inkişafa təsiri artıran texnoloji məhsulların biznes modelləri kəmiyyətcə qiymətləndirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində əldə edilən nəticələrdən həm sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi, həm də innovasiyalı inkişafa dəstək siyasətinin hazırlanmasında istifadə etmək olar. Tədqiqat işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, burada sahibkarlığa innovasiyalı iqtisadi inkişafın amillərindən biri kimi yanaşılıb. Tədqiqatın nəzəri və metodoloji əsasını tədqiqat üçün seçilmiş alqoritmə uyğun olaraq, hər bir tədqiqat blokuna uyğun nəzəri məsələlər, bu məsələlərə müxtəlif yanaşmalar müqayisəli təhlil edilmişdir. Bu zaman müxtəlif nüfuzlu jurnallarda dərc edilmiş nəzəri tədqiqatların nəticələri ümumiləşdirilmişdir. Sahibkarlıqla və innovasiyalı inkişafla bağlı iqtisadi nəzəriyyədə qəbul edilən yanaşmalardan istifadə edilmişdir. Bununla bərabər qeyd etmək lazımdır ki, sahibkarlığın bir amil olaraq iqtisadi artım nəzəriyyələrində yer alması bir mənalı qəbul edilməyib. Lakin empirik tədqiqatlar göstərir ki, sahibkarlığın inkişafı iqtisadi artımın mühüm amillərindən biri kimi qiymətləndirilə və iqtisadi nəzəriyyələrə daxil edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri 6 yerli və xarici jurnallarda dərc edilmiş məqalələrdə öz əksini tapmış, eləcə də 3 konfrans materialında, o cümlədən 2-si xaricdə olmaqla tezislər kimi dərc edilmişdir. Dissertasiyanın əsas məzmununu əks etdirən konfrans materialları sırasında "Современное развитие предпринимательского сектора в Азербайджане" (Гомель, 2021),

“Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sahıbkarlığın inkişaf perspektivləri” (Bakı, 2021), “Azərbaycanda sahibkarlığın mövcud vəziyyətinin qiymətləndirilməsi” (Москва, 2023) adlı tezisləri göstərmək olar. Tədqiqat zamanı müəllifin həmçinin “Müasir təcrübədə sahibkarlıq sektorunun inkişafı sahəsində dəstək mexanizmləri” (Bakı, 2020), “Sahibkarlıq fəaliyyətinin konseptual əsasları və xüsusiyyətləri” (Bakı, 2020), “Sahibkarlığın determinantları və onun ölçülməsinə müxtəlif yanaşmalar” (Gəncə, 2022), “İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə innovasiyalı inkişafa müqayisəli baxış” (Gəncə, 2022), “Оценка уровня инновационного развития Азербайджана” (Москва, 2022), “Sahibkarlığın innovasiyalı inkişafa təsirinin qiymətləndirilməsi metodları” (Bakı, 2024) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 14613 işarə, I fəsil 59320 işarə, II fəsil 60649 işarə, III fəsil 60022 işarə, nəticə 9908 işarə və istifadə edilmiş ədəbiyyat siyahısı 19572 işarə olmaqla ümumi həcm 245902 işarədən ibarətdir. Dissertasiyanın işarə sayı cədvəllər, qrafiklər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 204512 işarədir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, həmçinin işin aprobasiyası və tətbiqi öz əksini tapmışdır.

Dissertasiya işinin **“Sahibkarlıq sektorunun innovasiyalı inkişafa təsirlərinin öyrənilməsinin nəzəri və metodoloji əsasları”** adlanan birinci fəslində innovasiyalı inkişafın mahiyyəti və olkələrin innovasiya sistemlərinə müqayisəli baxış, sahibkarlığın innovasiyalı

inkişafa təsrinin qiymətləndirilməsi metodlarına nəzəri yanaşmalar, sahibkarlığın determinantlarının təsnifatı və onun ölçülməsi xüsusiyyətləri araşdırılmışdır.

Qloballaşmanın dərinləşməsi və dünya təsərrüfat sistemində ölkələrarası rəqabətin güclənməsi intellektual resurslara, bilik tutumlu və informasiya texnologiyalarına əsaslanan iqtisadiyyata keçidi zəruri edir. Artıq dövlətlərin zənginliyi xammalın zənginliyi ilə deyil, daha çox elmin və texnologiyanın inkişafına əsaslanır.

Müasir iqtisadi ədəbiyyatlarda geniş müzakirə edilən və innovasiyalı inkişafla birbaşa əlaqəsi olan "innovasiya", "innovasiya potensialı", "innovasiya prosesi", "innovasiya sistemləri" anlayışları ilə bağlı müxtəlif yanaşmaları müqayisəli təhlil edərək, "innovasiyalı inkişaf" və "innovasiyalı iqtisadi inkişaf" anlayışlarını dəqiqləşdirməyə çalışmışıq. Bu anlayışlarla bağlı çoxsaylı tədqiqatlar və məqalələr mövcud olmasına baxmayaraq, onların hələ də tam dəqiq və birmənalı tərifləri formalaşmamışdır.

"İnnovasiya" anlayışı Merriam-Webster lüğətində *"innovasiya" yeni ideya, yeni metod kimi, həmçinin yeni olan hər hansı bir şeyə giriş kimi xarakterizə olunur*[2]. Bu lüğət "ixtira" ilə "innovasiya" anlayışlarını sinonimi kimi qəbul edir. İxtira hesab edilən cisim, proses və hadisələr də yenilik kimi qəbul edilir. Lakin innovasiyanı ixtira ilə eyniləşdirmək düzgün deyil.

Ümumiyyətlə innovasiyanın ixtiradan mühüm fərqi onun dərhal tətbiqi ilə bağlıdır. İnnovasiya ictimai həyatın hər hansı sahəsində, o cümlədən, iqtisadi sahədə, xüsusilə bazarda tələbata cavab verərək, anında kommersiyalaşmaq qabiliyyətinə də malikdir.

"İnnovasiya" anlayışının hələ XIX əsrdə elmi tədqiqatlarda ortaya çıxmasına baxmayaraq, yalnız XX əsrdə J.Şumpeterin iqtisadi sistemlərin inkişafındakı dəyişikliklərlə bağlı "İqtisadi inkişaf nəzəriyyəsi" adlı məşhur əsərində mühüm elmi iqtisadi kateqoriya kimi möhkəmləndi. J.Şumpeter "innovasiya" anlayışını ilk dəfə olaraq iqtisadi ədəbiyyata gətirmiş qərb iqtisadçılarındandır. Onun yanaşmasına əsasən *innovasiya yeni materialların və komponentlərin tətbiqi, yeni proseslərin daxil edilməsi, yeni bazarların açılması və yeni*

---

[2] https://www.merriam-webster.com/dictionary/innovation

*təşkilati formaların tətbiqinə əsaslanan yeni kombinasiyaların kommersiyalaşmasıdır*[3]. İnnovasiyaya verilən bu tərifə əsasən J.Şumpeter innovasiyanı ixtiradan fərqləndirir. Lakin onun yanaşmasına görə ixtira da innovasiyadır, lakin bu texniki səviyyədə olan innovasiyadır. Avropa Birliyinin Statistika Bürosunun və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının 2006-cı ildə birgə hazırladığı "Oslo Bələdçisi"[4] adlanan sənəddə "innovasiya" anlayışına belə tərif verilir: "*innovasiya hər hansı yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş məhsulun (mal və ya xidmətin) və ya prosesin, yeni marketinq metodunun və ya biznes təcrübələrində, iş yerinin təşkilində və ya xarici əlaqələrdə yeni təşkilati metodun tətbiqidir*". Yuxarıda qeyd etdiyimiz kimi innovasiya təkcə texniki səviyyədə ixtira və ya yeni mal və xidmətin yaradılması və ya təkmilləşdirilməsi deyil, həm də ictimai həyatın müxtəlif sahələrini əhatə edən yeni təşkilati metoddur.

*İnnovasiya fəaliyyətinin elmi bünövrəsi olan innovatikanin, nəzəri əsasları və innovatika anlayışı innovasiyanın tətbiqinin planlaşdırılması, həmçinin təşkili metodlarını əhatə edir.*[5]

Tədqiqatçılar iqtisadi ədəbiyyatlarda regional və milli innovasiya sistemlərini bir-birindən fərqləndirirlər. Milli innovasiya sistemi konsepsiyası Şumpeter tərəfindən irəli sürülən ideyaya, yəni iqtisadi inkişaf üçün innovasiyaların vacibliyi məsələsinə söykənir. C.Freeman, B.Lundvall, R.Nelson, P.Patelvə K.Pavıtt, S.Metcalfe tərəfindən milli innovasiya sistemlərinin mahiyyəti daha da dəqiqləşdirilib. Məsələn, C.Freeman 1987-ci ildə ictimai və özəl sektorda fəaliyyət göstərən və yeni texnologiyaların yaradılmasını, idxal edilməsini, təkmilləşdirilməsini, həmçinin diffuziya olunmasını həyata keçirən institutların şəbəkəsini milli innovasiya sistemi hesab edir[6]. B.Lundvall hesab edir ki, milli innovasiya sistemi ölkənin sərhədləri daxilində bir-biri ilə qarşılıqlı əlaqədə olan elementlərdən və onların qarşılıqlı əlaqəsindən ibarətdir. Bu elementlər yeni və

---

[3] Шумпетер Й.Теория экономического развития. М. — «Эксмо», 2007.
[4] http://www.cisstat.org/innovation/Oslo%20Manual%20Russian/pdf
[5] Qasımov F.H., Əliyev T.N., Nəcəfov Z.M. Milli innovasiyalar sisteminin təşkili və idarə edilməsi. Bakı: "Elm və təhsil", 2013. s. 679.
[6] Freeman, C 1987. Technology Policy and Economic Performance: Lessons from Japan. London: Pinter.

iqtisadi faydalı olan biliklərin də digər şeylərin istehsalı, diffuziyası və istifadəsidir[7]. B.Lundvall yanaşmasında milli innovasiya sisteminə bir-biri ilə qarşılıqlı əlaqədə olan institutlar şəbəkəsi kimi yanaşılır. Lakin bu şəbəkə daha çox fərdlərlə əlaqəlidir. R.Nelson da milli innovasiya sistemini qarşılıqlı əlaqədə olan və innovasiyalı fəaliyyətini müəyyən edən institutların şəbəkəsi kimi xarakterizə edir.[8]

P.Patel və K.Pavitt tərəfindən verilən tərifə görə milli innovasiya sistemi ölkədə texnoloji biliklərin sürətini və istiqamətini, yaxud fəaliyyəti gücləndirən dəyişikliklərin həcmini və tərkibini müəyyən edən milli institutlar, həmçinin onların həvəsləndirici strukturlarıdır[9]. 1995-ci ildə S.Metcalfe tərəfindən milli innovasiya sisteminə verilən tərif də mahiyyətcə yuxarıda qeyd etdiyimiz təriflərdən ciddi fərqlənmir. Belə ki, S.Metcalfe də milli innovasiya sisteminə yeni texnologiyaların yaradılması və diffuziya edilməsi üçün institutlar şəbəkəsi kimi yanaşır. Bu tərifin əsas fərqləndirici cəhəti ondan ibarətdir ki, müəllif milli innovasiya sistemində olan institutların birgə və ya ayrı-ayrılıqda yeni texnologiyanın yaradılmasında və diffuziyasında töhvəsini, həmçinin bu sistemin innovasiya prosesinə təsir etmək üçün dövlət üçün şəbəkə rolu oynamasını əhatə edir[10].

Beləliklə, elmi ədəbiyyatda hansı ictimai fəaliyyət sahəsində olmasından asılı olaraq, innovasiyanın müxtəlif tiplərini fərqləndirirlər: a) texnoloji innovasiyalar; b) sosial innovasiyalar; c) məhsul innovasiyaları; d) təşkilati innovasiyalar; e) marketinq innovasiyaları. Bu tip innovasiyaların hər biri tətbiq edildiyi sahələrdə səmərəliliyi artırdığından digər ölkələrə sürətlə yayıla bilir. Belə yayılmanın nə üçün və hansı sürətlə baş verməsi ciddi nəzəri məsələdir və "innovasiyaların diffuziyası nəzəriyyəsi" adı ilə elmi ədəbiyyatda tanınır.

---

[7] Lundvall, B-A ed. 1992. National Systems of Innovation: Towards a Theory of Innovation and Interactive Learning. London: Pinter

[8] Nelson, R. R 1993. National Innovation Systems: a Comparative Study. New York: Oxford University Press.

[9] Patel, P. and K. Pavitt (1994), "The Nature and Economic Importance of National Innovation Systems",STI Review, No. 14, OECD, Paris

[10] Metcalfe, S. (1995), "The Economic Foundations of Technology Policy: Equilibrium and Evolutionary Perspectives", in P. Stoneman (ed.), Handbook of the Economics of Innovation and Technological Change, Blackwell Publishers, Oxford (UK)/Cambridge (US).

I fəslin “Sahibkarlığın innovasiyalı inkişafa təsirinin qiymətləndirilməsi metodları” adlanan 1.2-ci paraqrafında birinci və üçüncü paraqrafda ayrı-ayrılıqda nəzərdən keçirilən “innovasiya” və “sahibkarlıq” kateqoriyalarının bir-biri ilə əlaqəsinə həsr edilən yanaşmalara müqayisəli baxış yerinə yetirilmiş və bu iki göstərici arasındakı əlaqə nəzərdən keçirilmişdir. Sahibkarlığın iqtisadi artıma və innovasiyalı inkişafa təsirinin qiymətləndirilməsi üçün müxtəlif tədqiqatlarda istifadə edilən metodologiyalar müqayisəli təhlil edilmişdir.

Tədqiqatın “Sahibkarlığın determinantları və onun ölçülməsinə müxtəlif yanaşmalar” adlanan 1.3-cü paraqrafında “sahibkarlıq” kateqoriyasına müxtəlif yanaşmalar müqayisəli təhlil edilmişdir. Burada, müqayisəli təhlilə əsaslanaraq, Şumpeter tərəfindən sahibkarlığın tədqiq edilən xüsusiyyətləri əsas götürülmüşdür. Bu xüsusiyyətlər arasında “yeni məhsul yaradan və ya hər hansı məhsulun yeni keyfiyyətini yaradan”, “məhsulun istehsalının yeni texnologiyasını yaradan”, “yeni bazar yaradan”, “xammal və ya qismən istehsal olunmuş məhsulların tədarükü üçün yeni mənbələri aşkar edən” xüsusiyyətlər mühümdür. Yəni sahibkarlıq sadəcə “özü üçün iş qurmaq” deyil, bu fəaliyyətdə təşəbbüskarlıq, innovativlik və kommersiyalaşmış ideyanın mövcudluğu əsas yer tutur. Elə buna görə də “özüməşğulluğu” sahibkarlıqla eyniləşdirmək doğru deyil.

Tədqiqatın nəticələri onu deməyə əsas verir ki, hər hansı ölkənin “innovasiyalı iqtisadi inkişaf” səviyyəsinin müqayisəsi üçün etibarlı göstərici kimi Qlobal İnnovasiya İndeksindən (GEM) istifadəyə üstünlük verilməlidir. Lakin, sahibkarlıq səviyyəsinin kəmiyyətcə qiymətləndirilməsi üçün isə müxtəlif göstəricilərdən, o cümlədən, GEM indeksindən, “özüməşğulluq səviyyəsi”, “startap müəssisələrin sayı” “yeni yaradılan müəssisələrin sayı” və sair göstəricilərdən istifadə edilir.

2006-cı ildən istifadə edilən Sahibkarlıq Fəaliyyətinin Kauffman indeksi də belə göstəricilərdən biri hesab olunur[11]. Bu göstərici hər 100 min əhali arasında hər ay üzrə yeni biznes yaradan yetkin qeyri-

[11] Fairlie, Robert (2006). Kauffman Index of Entrepreneurial Activity: National Report, 1996-2005. Ewing Marion Kauffman Foundation

biznes mülkiyyətçilərinin payını hesablayır və bu cür biznesin muzdlu işçiləri də ola bilər. Sahibkarlıq səviyyəsini ölçmək üçün Dünya Bankı Qrupu tərəfindən hazırlanan Sahibkarlıq Məlumat bazası (WB, 2023)[12] bütün dünyada hər il yeni yaradılan özəl müəssisələrin dinamikasını göstərir.

Beləliklə aparılan tədqiqatlardan belə nəticəyə gəlmək olur ki, bu cur məlumatlardan istifadə edilməsi bir neçə səbəbə görə daha əlverişli hesab olunur. İlk olaraq, dünyanın bütün ölkələrini əhatə edir. İkincisi, əlçatandır və bir neçə il üzrə əksər ölkələrin məlumatlarını əldə etmək olar. Üçüncüsü, sahibkarlıq səviyyəsinin ölçülməsi üçün daha münasib göstəricini, yeni yaradılmış müəssisələrin sayını əhatə edir. Dördüncüsü, bu baza həm də yeni biznes sıxlığını ölçməyə imkan yaradır.

**II fəsil Azərbaycanda sahibkarlığın mövcud vəziyyətinin təhlili və innovasiyalı inkişaf səviyyəsinin qiymətləndirilməsinə** həsr edilib. “Azərbaycanda sahibkarlığın mövcud vəziyyətinin təhlili” adlanan 2.1-ci paraqrafında ölkəmizdə sahibkarlıq subyektlərinin təsnifatı verilmişdir. Şübhəsiz ki, belə qiymətləndirmə zamanı Şumpeterin sahibkarlıq fəaliyyətinin əsas xüsusiyyətləri nəzərə alınmamış və yalnız ARDSK-nin təsnifatı əsas götürülmüşdür. Bu baxımdan Azərbaycanda sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri kimi təsnifatından istifadə edilmişdir. Buna baxmayaraq, Azərbaycanda sahibkarlıq subyektlərinin R&D üçün ayırdıqları investisiyaların həcmnə görə qiymətləndirmələr belə xərclərin çox az olması qənaətinə gəlməyə əsas verir.

Azərbaycanda mikro sahibkarlıq subyektləri R&D sahəsinə, demək olar ki, vəsait ayırmırlar. Kiçik sahibkarlıq subyektləri tərəfindən ayrılan vəsaitlər isə elmin inkişafı üçün əhəmiyyətli həcmdə deyil. Elmin və innovativ ideyaların inkişafı üçün müəyyən qədər rolu ola bilən həcmdə vəsaitlər yalnız orta və iri sahibkarlıq subyektləri tərəfindən ayrılır. Lakin belə müəssisələrin ölkədə az olması R&D sahəsinə ayrılan cəmi vəsaitlərin həcminin də az olmasına səbəb olur.

Yuxarıda qeyd edilən istiqamətlərdə mövcüd problemlərin həll

[12] WB, 2023. World Bank's Group. The Entrepreneurship Database. https://www.worldbank.org/en/programs/entrepreneurship

edilməsi və beynəlxalq standartlara inteqrasiya məqsədi ilə son dövrlərdə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiq edilmişdir. Bu prioritetlərə söykənən “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda əks olunmuş “İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış” Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə Prezident İlham Əliyevin 16.11.2022-ci il tarixli 3587 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq edilmişdir. Dövlət Proqramı çərçivəsində qarşıya qoyulan prioritetlər “universallıq”, “inteqrasiyalı yanaşma” və “heç kimin geridə qalmaması” kimi prinsiplərə əsaslanan Dayanıqlı İnkişaf Məqsədlərinə və onların müvafiq hədəflərinə uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı yaradılmış və onun nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi, həmçinin analitik-təşkilati dəstək göstərilməsi üçün İdarələrarası Mərkəz formalaşdırılmışdır.

Beynəlxalq təcrübəyə əsaslanaraq yüksək standartlara cavab verən yaşayış məntəqələrinin, eləcə də "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları əsasında yeni müasir kəndlərin və şəhərlərin tikilməsi ilə həmin ərazilərin tarixi əhalisinin məskunlaşdırılmasına başlanılmışdır. Belə ki, Zəngilan rayonunun Ağalı kəndi beynəlxalq standartlara uyğun olaraq "Ağıllı kənd" layihəsi çərçivəsində müasir yaşayış məntəqəsinə çevrilmişdir. Hal-hazırda Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Laçın və Şuşada, eləcədə işğaldan azad olunmuş digər ərazilərdə əhalinin doğma yurdlarına köçürülməsi işləri vüsətlə davam etdirilir.

*İşğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın ayrı-ayrı sahələrinin canlandırılmasının sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi ilə*

*sənaye potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi, tənzimləyici və stimullaşdırıcı mexanizmlərin və əlverişli sahibkarlıq mühitinin formalaşdırılması məqsədi ilə bir sıra təkliflər paketi hazırlanaraq reallaşdırılır.*

Qarşıya qoyulmuş layihələrin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması üçün 2021-ci ildə 2.2 milyard manat, 2022-ci ildə 2.7 milyard manat, 2023-cü ildə 3.0 milyard manat vəsait ayrılması təsadüfi deyildir.

II fəslin "Rəqəmsal sahibkarlıq və biznes mühitinin qiymətləndirilməsi" adlanan ikinci paraqrafında innovasiya sistemi və ona təsir edən amillər təhlil edilib. Burada, texnoloji innovasiyalara çəkilən xərclərin gələcəkdə istehsalı stimullaşdırmasına və rəqabətliyi artırmasına olan inam bu tip xərcləri onların qaytarılması tezliyinin artmasına böyük inam yaradır. İnnovasiya sahibkarlığının formalaşması məqsədilə pul-kredit münasibətlərinin inkişafı üçün dövlətin maliyyə siyasətinin əsas istiqamətləri aşağıdakılar sayılır (şəkil 1):




**Şəkil 1. İnnovasiya sahibkarlığının formalaşmasında dövlətin maliyyə siyasətinin əsas istiqamətləri üzrə blok sxem.**

*Mənbə: müəllif tərəfindən tərtib edilib*

- innovasiya risklərinin sığortalanması təcrübəsinin tətbiqi. Adı çəkilən istiqamət, sahibkarlıq sektoru tərəfindən elmtutumlu texnologiyaların mənimsənilməsində stimulları yüksəltməyə imkan verir;

- vahid ixtisaslaşmış ekspert orqanının yaradılması;

- bank faizi dərəcələrinin aşağı salınması, Belə ki, vençur kapitala sərmayə qoyulması aşağı faiz dərəcələri zamanı həyata keçirilə bilər, bu isə öz növbəsində səhmdar kapitalın dəyərini yüksəldir və şirkətin bu fəaliyyətdən əldə edə biləcəyi mənfəətin həcmini artırar;

- yüksək texnoloji məhsul bazarlarında beynəlxalq təcrübəyə malik olan mövcud milli şirkətlərin bazasında elmtutumlu məhsulların irəliləməsi üçün iri innovasiya marketinq mərkəzlərinin yaradılması;

- prioritet sənaye sahələrinin, məsələn, maşınqayırma, kimya, metallurgiya, yüngül və s. sahələrinin yüksək texnoloji müəssisələr üçün müəyyən olunmuş banklarda və investisiya fondlarında məqsədli investisiya qoyuluşlarının qaytarılanlığına dövlət təminatının tətbiqi.

Xüsusilə nəzərə alsaq ki, bu xərclərin müəyyən hissəsi məhz tədqiqatlara və yeni işləmələrə sərf edilir, onda belə xərclərin heç də səmərəsiz olmasını iddia etmək olmaz.

Azərbaycanda innovativ məhsul istehsalı 0.05%-dən də azdır. Ölkə iqtisadiyyatında mühüm çəkiyə malik olan mədənçıxarma sənayesində bu pay daha azdır (0.003%). İnnovativ texnologiyaların tətbiqinin daha asan olduğu və innovativ məhsullara daha yüksək tələbin formalaşdığı sahədə - emal sənayesi sektorunda bu pay 0.2% həddindədir. Emal sənayesi sektoruna daxil olan kompüter və digər elektron avadanlıqların istehsalı sahəsində və toxuculuq sənayesində 2007-2023-cü illər arası dövrdə istehsal olunan məhsulun, uyğun olaraq, 5.2% və 1.8% innovativ məhsul hesab edilə bilər. Beləliklə, Azərbaycanda milli innovasiya sisteminə təsir göstərən innovativ məhsul bazarı əsasən idxal malları hesabına təmin edilir və yerli innovativ məhsulların bazarda payı olduqca azdır.

Qrafik 1-dən göründüyü kimi, Azərbaycana idxal olunan malların strukturuna diqqət etdikdə məlum olur ki, ölkəmizə idxal edilən innovativ və bilik tutumlu "Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, onların hissələri", "Yerüstü nəqliyyat vasitələri, üzən vasitələr və nəqliyyata aid qurğular", həmçinin "Optik, fotoqrafiya,




**Qrafik 1. Azərbaycanda bilik tutumlu məhsul idxalının həcmi, (1994-2023-cü illər)**

*Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.*

kinomatoqrafiya, ölçü, nəzarət, tibbi alət və aparatları, saatlar, musiqi alətləri" mal qrupları idxalda yüksək paya malikdirlər. Bu mal qrupları üzrə onların cəmi idxalda payı son illər 35%-ə qədər azalsa da, 1998-2017 illərdə 40%-dən yüksək olub. Bilik tutumlu və innovativ məhsulların idxal edilməsi ölkədə texnoloji yeniliklərin tətbiqini genişləndirib. Lakin ölkəmzin yeni texnoloji və innovativ məhsulların istehlakçısı olmaqla yanaşı, həm də istehsalçısı olması arzuolunandır.

İkinci fəslin 3-cü paraqrafında Azərbaycanda innovasiyalı inkişaf səviyyəsi qiymətləndirilmişdır və Qlobal İnnovasiya İndeksi (QİI) əsasında digər ölkələrlə müqayisə aparılmışdır. Tədqiqatda QİI-nin iqtisadi artıma təsirləri ilə bağlı metodologiyalar müqayisəli təhlil edilmişdir.

Sahibkarlığın inkişafına təsir göstərən mühüm amillərdən biri də ölkədə hökumətin həyata keçirdiyi fiskal siyasətdir. Sahibkarlıq subyektlərinə tətbiq edilən vergilərin həcmi və onlar üçün yaradılan biznes mühiti mühüm əhəmiyyət daşıyır. Lakin ölçüsündən asılı

olmayaraq, sahibkarlıq subyektlərinə eyni yanaşma ölkədə monopolist strukturun yaranmasına səbəb ola bilər. Bunu nəzərə alaraq, digər ölkələrdə olduğu kimi, Azərbycanda da sahibkarlıq subyektləri ölçüsündən asılı olaraq, "mikro", "kiçik", "orta" və "iri" sahibkarlıq subyekti kimi dörd yerə ayrılır.




**Qrafik 2. Azərbaycanda sahibkarlıq subyektlərinin sayı**
*Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.*

Azərbaycanda sahibkarlıq subyektlərinin sayı ilbəil artır. Qeyd etmək lazımdır ki, yaradılan sahibkarlıq subyektlərinin heç də hamısı aktiv olmur. Müəssisə yaradıla bilər, müəyyən müddət fəaliyyət göstərəndən sonra öz fəaliyyətin dayandıra bilər. Digər tərəfdən, iqtisadi fəaliyyət sahələrindən asılı olaraq, sahibkarlıq subyektlərinin sayı da dəyişir. Qrafik 2-də 2021 və 2022-cü ildə belə müəssisələrin sayı verilmişdir. Qrafiklərdən göründüyü kimi Azərbaycanda sahibkarlıq subyektlərinin mühüm hissəsi (təqribən 97%) mikro ölçüdədir. Yeni yaradılan kiçik və orta sahibkarlıq subyektləri 2021-2022-cü illərdə cəmi sahiblarlıq subyektlərinin sayında 3%-dən az olmuşdur. Belə sahibkarlıq subyektləri arasında yeni yaradılanlar da çox deyil.




**Qrafik 3. Azərbaycanda yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

*Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.*

Qrafik 3-də Azərbaycanda yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayına dair verilən məlumatlar göstərir ki, 2021-ci ildən 2022-ci ilə qədər ümumi artım müşahidə olunub. Belə ki, 2021-ci ildə ümumilikdə 118,719 sahibkarlıq subyekti mövcud olduğu halda, 2022-ci ildə bu rəqəm 121,737-ə çatıb. Ən çox artım mikro sahibkarlıq subyektlərində baş verib; onların sayı 118,537-dən 121,308-ə yüksəlib. Kiçik sahibkarlıq subyektlərinin sayı isə nisbətən daha kəskin artaraq 138-dən 363-ə yüksəlib. Orta sahibkarlıq subyektlərinin sayında da artım olub, 2021-ci ildəki 44-dən 2022-ci ildə 66-ya yüksəlib. Bu göstəricilər Azərbaycanda xüsusilə kiçik və orta sahibkarlıq sahəsində müəyyən inkişaf dinamikasının olduğunu göstərir.

Qİİ üzrə 2007-2023-cü illər üzrə ölkələrin sıralanması göstərir ki, bu göstərici üzrə inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələri ciddi şəkildə üstələyir. 2011-ci ilə qədər Qİİ metodologiyasına uyğun olaraq, ballar 10 ballıq şkala əsasında hesablanırdı. Sonrakı illərdə isə metodologiya dəyişilmiş və ballar 100 ballıq şkalaya uyğun hesablanmışdır. Ona görə də tədqiqatda 2007-2023-cü illər arası dövr üçün Qİİ-nın dinamikası əvəzinə 2011-2023-cü illərarası dövr üçün dinamikadan istifadə edilib. Qeyd edək ki, yüz ballıq şkala Qİİ üzrə ölkələr arasındakı fərqləri daha aydın ifadə etməyə imkan verir (cədvəl 1).

**Cədvəl 1**

**QİI üzrə Azərbaycanın reytinqinin maksimum və minimum mövqelərdə olan ölkələrlə müqayisəsi**

| | Azərbaycan | Reytinqdə yeri | Maksimum mövqe | Ölkə | Minimum Mövqe | Ölkə | Ölkələrin Sayı |
|---|---|---|---|---|---|---|---|
| 2011 | 29,17 | 88 | 63,82 | İsveçrə | 19,79 | Əlcəzair | 125 |
| 2012 | 30,4 | 89 | 68,2 | İsveçrə | 16,8 | Sudan | 141 |
| 2013 | 28,99 | 105 | 66,59 | İsveçrə | 19,32 | Yemən | 142 |
| 2014 | 29,6 | 101 | 64,78 | İsveçrə | 12,66 | Sudan | 143 |
| 2015 | 30,1 | 93 | 68,3 | İsveçrə | 14,95 | Sudan | 141 |
| 2016 | 29,64 | 85 | 66,28 | İsveçrə | 14,55 | Yəmən | 126 |
| 2017 | 30,58 | 82 | 67,69 | İsveçrə | 15,64 | Yəmən | 127 |
| 2018 | 30,2 | 82 | 68,4 | İsveçrə | 15,04 | Yəmən | 126 |
| 2019 | 30,21 | 84 | 67,24 | İsveçrə | 14,49 | Yəmən | 129 |
| 2020 | 27,23 | 82 | 66,08 | İsveçrə | 13,56 | Yəmən | 131 |
| 2021 | 28,04 | 80 | 65,5 | İsveçrə | 15 | Anqola | 132 |
| 2022 | 21,5 | 93 | 64,6 | İsveçrə | 11,6 | Qvineya | 132 |
| 2023 | 23,3 | 89 | 67,6 | İsveçrə | 10,3 | Anqola | 132 |

*Qeyd: müəllif tərəfindən tərtib edilib*

QİI "xərc" və buraxılış" komponentlərindən ibarətdir. "Xərc" komponenti 1) institutlar; 2)insan kapitalı və tədqiqatlar; 3) infrastruktur; 4) bazarın mürəkkəbliyi və 5)biznesin mürəkkəbliyi sub-indekslərini əhatə edir. "Buraxılış" komponenti isə 1)bilik və texnoloji məhsullar; 2)yaradıcı məhsullar sub-indekslərini əhatə edir. Əlbəttə, "xərc" və "buraxılış" komponentləri biri-biri ilə əlaqəlidir. 2023-cü il üzrə aparılan tədqiqatlar göstərir ki, bu iki komponent arasında yüksək xətti əlaqə mövcuddur.

QİI-nin "xərc" və "buraxılış" komponentləri arasındakı əlaqənin xarakterinədn asılı olaraq, innovasiya sisteminin səmərəliliyi haqqında fikir yürütmək olar. Belə ki, əgər hər hansı ölkənin göstəricisi orta kvadratik göstəricidən kiçikdirsə, onda onu qeyri-səmərəli hesab etmək olar. Təəssüf ki, Azərbaycanın 2023-cü il üzrə göstəricisi orta kvadratik əlaqədən kiçikdir.

Azərbaycanın QİI-nin "Xərc" və "buraxılış" komponenti üzrə dinamikası (qrafik 4, qrafik 5).







**Qrafik 4. Azərbaycanın QİÎ-nin "xərc" və "buraxılış" komponenti üzrə balları**

**Qrafik 5. Azərbaycanın QİÎ-nin "xərc" və "buraxılış" komponenti üzrə mövqeləri**

*Qeyd: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.*

QİÎ-nin "xərc" və "buraxılış" komponentlərinin hesablanmış ballarının dinamikası və bu komponentlər üzrə ölkəmizin mövqeyinin dinamikası deməyə əsas verir ki, hər iki komponent üzrə ölkəmizin mövqeyi arzuolunan səviyyədə deyil. Ölkəmizin mövqeyi bu komponentlər üzrə son 10 ildə, uyğun olaraq, 74-92 və 86-114 arasında dəyişib. Nəzərə alsaq ki, bu tədqiqata yalnız 2012-2015-cü illərdə 140-dan bir qədər çox ölkə cəlb edilib, onda Azərbaycanın mövqeyinin xeyli aşağı olduğu məlum olar. Beləliklə, QİÎ-nin hər iki komponenti üzrə balların və mövqeyin zəif olması və bu göstəricilər üzrə ölkəmizin reytinqinin yaxşılaşdırılması mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə hər iki komponentə daxil olan sub-indekslərin ayrı-ayrılıqda dinamikasının izlənməsinə və ölkəmizin bu sub-indekslər üzrə zəif və güclü tərəflərinin müəyyən edilməsinə ehtiyac var.

Dissertasiyanın **III fəsli "Sahibkarlıq sektorunun innovasiyalı inkişafa təsirlərinin təkmilləşdirilməsi"**nə həsr edilmişdir. Bu fəslin "Azərbaycanda sahibkarlıq sektorunun innovasiyalı iqtisadi inkişafa təsirlərinin əsas istiqamətləri" adlanan 1-ci, "Sənaye sektorunda sahibkarlığın innovativ inkişaf perspektivləri" adlanan 2-ci

paraqraflarında kəmiyyət qiymətləndirilməsi aparılmış və müvafiq perspektiv inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Alınan nəticələrə əsasən iddia etmək olar ki, sənaye sektorunda məhsul innovasiyasına çəkilən xərclər proses innovasiyasına çəkilən xərclərdən ciddi fərqlənir. Belə fərqlər sənaye sektorunda fəaliyyət növündən asılı olaraq da dəyişir. Məsələn, emal sənayesində texnoloji innovasiyalara çəkilən xərclər sənaye sektoruna aid cəmi xərclərin 75%-ni təşkil edir. Bu xərclərdə isə məhsul innovasiyalarına çəkilən xərclər (230738,7 min manat) proses innovasiyalarına çəkilən xərcləri (104126,6 min manat) təqribən iki dəfə üstələyir.

Tədqiqatların mühüm hissəsi həm sahibkarlığın, həm də innovasiyanın iqtisadi artıma təsirləri ilə bağlıdır. Hər iki fenomenin iqtisadi artıma pozitiv təsiri onlar arasındakı qarşılıqlı və iki-istiqamətli təsirin mövcud olması qənaətinə gətirməyə əsas verir. Bu iki göstərici arasında birbaşa əlaqənin olmasına həsr edilən empirik tədqiqatların aparılmasındakı çətinlik bu göstəricilərin birbaşa kəmiyyətcə qiymətləndirilməsi ilə bağlıdır. Belə ki, ölkədə həm innovativ iqtisadi inkişaf, həm də sahibkarlıq daha çox keyfiyyət xarakterlidir və onların kəmiyyətcə qiymətləndirilməsi qiymətləndirmə meyarlarından asılıdır. Bir çox hallarda qiymətləndirmə meyarları və metodologiyadan asılı olaraq, inkişaf dinamikasını qurmaq çətin olur. Belə metodoloji çətinliklər, demək olar ki, bütün keyfiyyət göstəricilərinə xasdır. Məsələn, ölkədə biznes mühitinin əlverişliliyinin qiymətləndirilməsi zamanı yalnız müqayisəli şəkildə demək mükündür ki, hansı ölkədə biznes mühiti digərlərinə nisbətən daha əlverişlidir. Belə çətinliklərin nəticəsidir ki, Dünya Bankının Doing Busines Tədqiqat Qrupunun hazırladığı metodologiyalar son 10 ildə bir neçə dəfə dəyişikliyə uğramışdır. Dəyişikliklər səbəbindən uzunmüddətli dövr üçün göstəricilərin dinamikasını qurmaq xeyli çətin olur. Qlobal İnnovasiya İndeksi vasitəsilə ölkələrdə innovativ inkişaf səviyyəsinin qiymətləndirilməsində də oxşar problemlər müşahidə edilir.

Müxtəlif ölkələrdə sahibkarlıq səviyyəsinin müqayisəli qiymətləndirilməsinə imkan verən Qlobal Sahibkarlıq Monitoru (QSM) indeksi üçün də eyni problemlərin olduğunu qeyd edə bilərik. Belə ki, sahibkarlıq üzrə qiymətləndirmələr aparılan zaman həm yaşlı

əhali arasında, həm də milli ekspertlər qrupu arasında sorğular aparılır. Sorğuların əsasında xüsusi metodologiyaya əsaslanaraq, qiymətləndirmələr yerinə yetirilir.

Azərbaycan üzrə belə qiymətləndirmələr aparılmadığına görə biz öz tədqiqatımızda həm sahibkarlığın və onun innovasiyalı inkişafla əlaqəsinin qiymətləndirilməsi, həm də sahibkarlığın bu və ya digər aspektini əhatə edən göstəricilərindən istifadə edilmişdir. Məsələn, belə göstərici olaraq, Azərbaycanda sahibkarlıq subyektlərinin sayını götürə bilərik. Hətta mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayını ayrı-ayrılıqda götürmək olar.

Əgər texnoloji innovasiyalara çəkilən xərclərin səmərəliliyini sənaye sektorunda "əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş məhsul" həcmi ilə "təkmilləşdirilmiş məhsul" həcminin cəminin xərclərə olan nisbəti kimi xarakterizə etsək, onda 2007-2023-cü illərarası dövrdə orta səmərəliliyi cəmi sənaye sektoru (Tİ), hasilat sektoru (Eİ) və emal sənayesi (Pİ) üçün aşağıdakı kimi hesablaya bilərik:

Tİ=300761,9/447274,9=0.67

Eİ=26518,1/65208,9=0.41

Pİ=274243,8/334865,3=0.82

Hesablamalar göstərir ki, həm hasilat, həm də emal sənayesində "əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş məhsul" həcmi ilə "təkmilləşdirilmiş məhsul" həcminin cəmi texnoloji innovasiyalara çəkilən cəmi xərclərdən azdır. Buna baxmayaraq, texnoloji innovasiyalara çəkilən xərclərin gələcəkdə istehsalı stimullaşdırmasına və rəqabətliyi artırmasına olan inam belə xərclərin edilməsinə haqq qazandırır. Xüsusilə nəzərə alsaq ki, bu xərclərin müəyyən hissəsi məhz tədqiqatlara və yeni işləmələrə sərf edilir, onda belə xərclərin heç də səmərəsiz olmasını iddia etmək olmaz.

Alınan nəticələr (cədvəl 2) sübut edir ki, Azərbaycanda sahibkarlıq subyektlərinin sayı emal sənayesində texnoloji innovativ məhsul istehsalı həcminə təsir göstərmir.

**Cədvəl 2**

**Emal sənayesində texnoloji innovasiyalı məhsul istehsalı həcminin sahibkarlıqla əlaqəsinin reqressiya analizi**

| | $ioutput1_t$ | $ioutput2_t$ |
|---|---|---|
| $R^2$ | 0.200284 | 0.511928 |
| Müşahidələrin sayı | 15 | 15 |
| $\beta_1$ | | |
| əmsal | -24510.51 | -17761.53 |
| Standart xəta | 28322.86 | 6211.340 |
| t-statistika | -0.865397 | -2.859532 |
| p-qiymət | 0.4053 | 0.0155 |
| $\beta_2$ | | |
| əmsal | -0.034421 | 6.19E-07 |
| Standart xəta | 0.404341 | 0.088674 |
| t-statistika | -0.085129 | 6.98E-06 |
| p-qiymət | 0.9337 | 1.0000 |
| $\beta_3$ | | |
| əmsal | -0.467198 | 0.085589 |
| Standart xəta | 0.732242 | 0.160584 |
| t-statistika | -0.638039 | 0.532987 |
| p-qiymət | 0.5365 | 0.6046 |
| $\beta_4$ | | |
| əmsal | 21.54807 | 9.851383 3 |
| Standart xəta | 13.82511 | .031913 |
| t-statistika | 1.558618 | 3.249230 |
| p-qiymət | 0.1474 | 0.0077 |
| Durbin-Uatson əmsalı | 1.352312 | 1.984235 |

*Mənbə: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanmışdır*

Fikrimizcə, həmçinin məhsul innovasiyalarına və proses innovasiyalarına çəkilən xərclər də istehsal həcminə əhəmiyyətli təsir göstərmir və bunun bir neçə səbəbi ola bilər.İlk növbədə, sahibkarlıq subyektlərinin maliyyə vəsaitləri az olduğundan onlar yalnız müəyyən həcmdə yeni texnologiyaların əldə edilməsinə nail olurlar. Əksər hallarda belə texnologiyalar artıq inkişaf etmiş ölkələrdə mənəvi cəhətdən köhnəlmiş olduqlarından və ya onların quraşdırılıb istifadəyə verilməsi müddəti uzandığından belə müəssisələr rəqabətli ola bilmirlər. İnnovasiyalı emal məhsulu istehsalının davamlı olmaması

həm də çəkilən xərclərin əksər hallarda kadr hazırlığına deyil, əsasən avadanlıqların alınmasına sərf edilməsi onlardan istifadənin davamlılığına mənfi təsir edir.

Xüsusilə, müəssisələrin mütləq əksəriyyətinin xüsusi mülkiyyətə əsaslanması və həmin müəssisədə istehsal edilən məhsul və xidmətlərin rəqabət qabiliyyətinin yüksəldilməsində maraqlı olmaları sahibkarlığın texnoloji innovasiyalara təsirini gücləndirir. Qeyd edək ki, emal sənayesində və onun alt-sahələrində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı ilbəil artır (cədvəl 3).

**Cədvəl 3.**

**Emal sənayesində və onun alt-sahələrində fərdi sahibkarlıqla məşğul olanların say dinamikası**

| | Emal sənayesində cəmi | | | | İçki məhsulları istehsalı | | | | Toxuculuq məhsulları | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Dövlət | q-dövlət | Fərdi sahib-karlıq | Cəmi | Dövlət | q-dövlət | Fərdi sahibkarlıq | Cəmi | Döv-lət | q-dövlət | Fərdi sahib-karlıq |
| 2015 | 1778 | 144 | 1634 | 15711 | 120 | 3 | 117 | 224 | 68 | 14 | 54 | 135 |
| 2016 | 1775 | 140 | 1635 | 16009 | 119 | 3 | 116 | 218 | 66 | 14 | 52 | 136 |
| 2017 | 1826 | 117 | 1709 | 17154 | 110 | - | 110 | 222 | 67 | 12 | 55 | 157 |
| 2018 | 2034 | 118 | 1916 | 17988 | 120 | 1 | 119 | 228 | 74 | 13 | 61 | 168 |
| 2019 | 2330 | 124 | 2206 | 19842 | 126 | 1 | 125 | 235 | 80 | 14 | 66 | 182 |
| 2020 | 2515 | 117 | 2398 | 22957 | 131 | 1 | 130 | 260 | 89 | 13 | 76 | 215 |
| 2021 | 2777 | 110 | 2667 | 24898 | 146 | 1 | 145 | 255 | 93 | 13 | 80 | 247 |
| 2022 | 3023 | 116 | 2952 | 29478 | 158 | 2 | 156 | 269 | 98 | 12 | 86 | 253 |
| 2023 | 3534 | 128 | 3320 | 35143 | 169 | 2 | 167 | 280 | 108 | 14 | 94 | 278 |

*Mənbə: ARDSK-nin məlumatları əsasında tərtib edilib*

Fərdi sahibkarlıq fəaliyyətində çeviklik yüksək, yeni ideyaların yaranması daha ehtimallı olsa da, belə ideyaların reallaşması, həmçinin bazara daxil olması xeyli çətindir.

Fikrimizcə, istehsal sahibkarlığının dəstəklənməsi üzrə dünya praktikasında müvəffəqiyyətlə tətbiq edilən təşkilati modellər (sənaye şəhərcikləri, biznes-inkubatorlar və s.) yaradılmalı və bu məqsədlə, müxtəlif istiqamətlərdə davamlı, sistematik xidmətlər göstərən təsisatlar təşkil edilməlidir.

Tədqiqat materiallarından çıxış edərək **nəticəni**, yeni elmi yanaşmaları, **təklif** və **tövsiyələri** aşağıdakı kimi xülasə etmək olar:

1. Tədqiqat və İnkişaf (R&D) xərclərinin ÜDM-də payı artdıqca, ölkənin gəlirləri də əhəmiyyətli dərəcədə artır. Bu, inkişaf etmiş ölkələrin R&D xərclərinə prioritet verməsinin iqtisadi artıma təsirini təsdiqləyir.

2. Adambaşına R&D xərcləri göstəricisində inkişaf etmiş ölkələr üstünlük təşkil edir və bu, elmi araşdırmaların iqtisadi inkişaf üçün əsas olduğunu göstərir.

3. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə elmi tədqiqatlara ayrılan maliyyə vəsaitlərinin təhlili göstərir ki, maliyyələşdirmə yüksək olduqda iqtisadi inkişaf səviyyəsi də artır.

4. 2023-cü ildə Qlobal İnnovasiya İndeksində ilk 25-də yer alan ölkələr son onillikdə də bu mövqeləri qoruyub saxlayıblar. Bu, innovasiyaların yeni investisiyaların cəlb olunmasına və iqtisadi artıma davamlı töhfə verdiyini göstərir.

5. 2007-2023-cü illər ərzində Azərbaycanın Qlobal İnnovasiya İndeksi üzrə göstəriciləri müəyyən qədər yüksəlsə də, hər iki əsas komponent – “xərc” və “buraxılış” üzrə zəif nəticələr əldə edilib. Bu sahələrdə irəliləyişin təmin edilməsi vacibdir.

6. Azərbaycan iqtisadiyyatının uzunmüddətli dövrdə innovasiyalı inkişafını təmin etmək üçün milli innovasiya strategiyasının hazırlanması vacibdir. Bu strategiya elmi tədqiqatlar, texnologiya transferi və innovativ sahibkarlığın inkişafını dəstəkləməli, qanunvericilik və dövlət siyasəti ilə möhkəmləndirilməlidir.

7. Dövlət büdcəsindən innovasiyalara ayrılan xərclərin artırılması ilə yanaşı, bu sahədə özəl sektorun da fəal iştirakı üçün vergi güzəştləri və stimullaşdırıcı mexanizmlər tətbiq edilməsini məqsədəuyğun hesab edirik. Startaplara dəstək məqsədilə xüsusi qrant proqramları və innovasiya fondları yaradılmalıdır.

8. Bakıdan kənarda innovasiya mərkəzlərinin və elmi-texnoloji parkların qurulmasını vacib hesab edirik. Fikrimizcə bu məsələlər regionların iqtisadi potensialını dövriyyəyə cəlb etməklə iqtisadi fəaliyyətin diversifikasiyasına və dayanıqlı inkişafına töhfə verə bilər.

9. Yerli innovativ məhsulların xarici bazarlara çıxarılması məqsədilə daha təkmil ixrac təşviqi proqramları və beynəlxalq ticarət

missiyalarının həyata keçirilməsi, bu sahədə sahibkarlıqın inkişafına fayda verə bilər.

10. İnkişaf etməkdə olan ölkələrdə milli innovasiyalar sistemi əsasən, inkişaf etmiş ölkələrdə yaradılmış texnologiyaların istifadəsinə əsaslanır. Bu isə müstəqil innovasiya potensialının gücləndirilməsi zərurətini ortaya qoyur.

11. Azərbaycanda innovativ məhsul istehsalı cəmi istehsal həcminin 0.05%-dən azını təşkil edir, bu da iqtisadiyyatda innovasiya fəaliyyətinin zəif olduğunu göstərir. Xüsusən, mədənçıxarma və emal sənayesində bu göstəricilər aşağı səviyyədədir. Ona görədə bu sahəyə dövlət dəstəyinin artırılmasını vacib hesab edirik.

12. Yüksək gəlirli ölkələrdə özüməşğulluq səviyyəsi aşağıdır (20%-dən az). Belə ki, göstərici əmək haqqı alanların iqtisadiyyatda daha böyük paya malik olduğu inkişaf etmiş ölkələrdə yüksək gəlirlərə səbəb olur.

13. Sənaye sektorunda texnoloji innovasiyalara yönəldilən xərclərin əsas hissəsi müəssisələrin öz maliyyə vəsaitləri hesabına reallaşır. Bu isə dövlət dəstəyi və xarici investisiyaların artırılmasını zəruri edir.

14. 2007-2023-cü illər ərzində emal sənayesində texnoloji innovasiyalara çəkilən xərclər arasında metallurgiya sektoru səmərəliliyi ilə fərqlənir. Bu sahədəki təcrübənin digər sənaye sahələrinə də tətbiq olunması müsbət nəticə verə bilər.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər müəllifin dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Əliyev A.N. Müasir təcrübədə sahibkarlıq sektorunun inkişafı sahəsində dəstək mexanizmləri // – Bakı: Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat elmlər seriyası, 2020, № 6. – s. 240-247.

2. Əliyev A.N. Sahibkarlıq fəaliyyətinin konseptual əsasları və xüsusiyyətləri // – Bakı: “Kooperasiya” elmi-praktik jurnal, 2020, № 4 (59). – s. 77-82.

3. Алиев А.Н. Современное развитие предпринимательского

сектора в Азербайджане // – Гомель: Экономико-правовые перспективы развития общества, государства и потребительской кооперации. Сборник научных статей III международной научно-практической интернет-конференции, 31 март 2021. – стр. 94-97.

4. Əliyev A.N. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sahıbkarlığın inkişaf perspektivləri // – Bakı: Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş “Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktiki konfrans, 6 may 2021. – s. 314-316.

5. Əliyev A.N. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə innovasiyalı inkişafa müqayisəli baxış – Gəncə: Azərbaycan Texnologiya Universiteti, “İnnovasiyalı iqtisadiyyat və menecment” jurnalı, 2022, № 1. – s. 58-66.

6. Əliyev A.N. Sahibkarlığın determinantları və onun ölçülməsinə müxtəlif yanaşmalar // – Gəncə: Azərbaycan Texnologiya Universiteti, “İnnovasiyalı iqtisadiyyat və menecment” jurnalı, 2022, № 3. – s. 29-35.

7. Алиев А.Н. Оценка уровня инновационного развития Азербайджана // – Москва: “Экономика и предпринимательство”. 2022, № 11 (148). – s. 1293-1296.

8. Алиев А.Н. Оценка современного состояния предпринимательства в Азербайджане // – Москва: Научный форум: Экономика и менеджмент: сб. ст. по материалам LXVII междунар. науч.-практ. Конф. 23 февраля 2023. – стр. 22-25.

9. Əliyev A.N. Sahibkarlığın innovasiyalı inkişafa təsirinin qiymətləndirilməsi metodları // – Bakı: Qərbi Kaspi Universiteti, Elmi xəbərlər 2024, № 3. – s. 277-283.

Dissertasiyanın müdafiəsi 12 mart 2025-ci il tarixdə $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.02.2025

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 45913 işarə

Tiraj: 100